# İnsan amilinə xüsusi diqqət yetirilməsi dinamik inkişafın stimuluna çevrilir

***Gədəbəyə tez-tez gedib-gəlirəm. Buna görə də adamların bir çoxunu yaxşı tanıyıram, kəndlərin problemlərini bilirəm, görülən işlərdən daim xəbərdaram. Bu, əlbəttə, öz yerində. Yəqin ki, 30 ildən çox müddətdə rəsmi bir mətbuat orqanının bölgə müxbiri işləyən insan üçün bunları bilməmək böyük qəbahət olar. Amma bu ucqar dağ rayonunda son vaxtlar diqqətimi daha çox cəlb edən icra strukturlarının adamlara isti münasibəti, necə deyərlər, “biganəlik buzu”nun əriməsidir. Burada həyata keçirilən bütün işlər məhz həmin istiqamətə yönəldilib, – desək yanılmarıq. Yəni, kifayət qədər məhsul da istehsal olunur, yeni sosial obyektlər də tikilir, yollar da salınır, istirahət mərkəzləri də öz qapılarını açır, lakin bütün hallarda Gədəbəy sakininə münasibət, insan amili önə çəkilir və bu yazıda həmin vacib məsələlərdən söhbət açacağıq.***

## Respublikada ilk dəfə burada...

Ötən ilin bu vaxtları idi. Mətbuat işçilərinin də dəvət olunduğu maraqlı bir açılışda iştirak edirdik. Prezident Administrasiyasının məsul işçiləri, digər qonaqlar, rayon ictimaiyyəti nümayəndələri də burada idilər. Operativ Xidmət Mərkəzinin yeni binasının açılışı idi. Əslində, bu mərkəz bir neçə ay idi ki, yaradılmışdı və onun fəaliyyətindən adamlar artıq razılıq etməyə başlamışdılar. Başqa sözlə, “ASAN xidmət” modelini icra hakimiyyətində tətbiq etməklə xidmətlərin sadələşdirilməsi, asanlaşdırılması mümkün olmuşdu. Özü də bu, elə bir vaxtda yaradılmışdı ki, ölkə Prezidenti yerli icra hakimiyyəti orqanlarına vətəndaşların müraciətlərinə operativ baxılması, onların qəbulu və dinlənilməsi prosesinin təkmilləşdirilməsi ilə bağlı konkret tapşırıqlar vermişdi, tövsiyələrini bildirmişdi. Elə məhz bunlar da rayon icra hakimiyyətinin fəaliyyət prioriteti kimi qəbul edilmişdi. Sadəcə mərkəz üçün ayrılan otaq darısqal idi və daha səmərəli fəaliyyət göstərmək üçün mütləq əlavə binaya zərurət yaranmışdı. Çox qısa vaxt ərzində, elə icra hakimiyyətinin mövcud inzibati binasına bitişik gözəl bir korpus tikilmişdi və qeyd etdiyim kimi, keçən ilin fevralında istifadəyə verildi.

Qeyd edək ki, rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayevin təşəbbüsü ilə yaradılan mərkəzin sorağı artıq hər yerə yayılıb və ən başlıcası, insanlar hədsiz razılıq edirlər. Çünki vaxt itirmirlər, bütün işlər operativ həll edilir, vətəndaş eyni vaxtda, vahid məkanda rayon icra hakimiyyətinin bütün struktur bölmələri ilə ünsiyyətdə olur, son nəticədə də, o, məmnun qalır…

Hazırda Operativ Xidmət Mərkəzi 625 kvadratmetr sahəyə malik yeni korpusa malikdir. Qeyd edək ki, binanın inşaat planı hazırlanarkən, onun xidmət yönümünə uyğunlaşdırılmasına xüsusi diqqət yetirilib. Burada 9 xidmət masası, server otağı, məlumat masası, böyük monitor, mini ATS və “Data” resurs bazası, könüllülər üçün 8 nəfərlik “dəyirmi masa”, növbəliliyi təyin edən terminal, ödəmələrin həyata keçirilməsi üçün “Milli ön” aparatı, 9 kompüter dəsti mövcuddur. Mərkəzdə quraşdırılmış böyük monitorda xidmət sahələrinin adı, həmin sahələrə məsul şöbələr, tələb olunan sənədlərin nümunəsi, sənədlərin icra müddəti, qanunvericilik bazası yerləşdirilmişdir. Hər sahəyə məsul şəxs telefon və kompüter dəsti ilə təchiz edilərək, internetə çıxışla təmin olunmuşdur.

Mərkəzə daxil olan vətəndaş xidmət terminalında aidiyyəti üzrə bölməni seçir və terminal avtomatik növbəlilik müəyyən edir. Vətəndaş aidiyyəti üzrə xidmətlər masasında əyləşmiş şöbənin məsul işçisinə sənədlərini təqdim edir, müraciətin həlli üçün qanunvericilikdə nəzərdə tutulmuş müddətin minimum iş günü müəyyən edilir və vətəndaşa sənədin təqdim olunması tarixi barədə məlumat verilir. Xidmət bütövlükdə videolentə alınır, eyni zamanda, gün ərzində xidmətlərin statistikası barədə serverdə avtomatlaşdırılmış uçot aparılır.

Operativ Xidmət Mərkəzində memarlıq və tikinti məsələləri üzrə 16, sosial-iqtisadi məsələlər üzrə 7, hüquq məsələləri üzrə 10,




İƏD üzrə nümayəndəliklər və bələdiyyələr üzrə 8 xidmət olmaqla, ümumilikdə, 41 sahə üzrə xidmət həyata keçirilir.

Tikintisinə icazə tələb edilən tikinti obyektinin istismarına icazə verilməsi, yaşayış sahəsinə ehtiyacı olan vətəndaşların uçota alınması, 2013-cü ilə qədər sənədsiz inşa edilmiş fərdi yaşayış evlərinin faktiki vəziyyətinin plan-sxeminin işlənilməsi və sair barədə məsələlərə qanunvericiliklə 30 gün müddətində baxılması nəzərdə tutulduğu halda, mərkəz tərəfindən 5 iş günü müddətində onların icrası təmin edilir. Eyni zamanda, rüsum tələb olunan xidmətlərə görə vətəndaş banka getmədən





mərkəzdə quraşdırılmış terminal vasitəsilə ödənişi həyata keçirə bilir.

Mərkəzdə vətəndaş müraciətlərinin operativ həll edilməsi məqsədilə “Qaynar xətt”(164) yaradılmışdır. Həmçinin xidmətlərin səmərəliliyinin artırılması üçün könüllülər fəaliyyət göstərir. “Qaynar xətt”ə daxil olmuş müraciət əsasında, RİH tərəfindən ayrılmış xüsusi avtomobil vasitəsilə məhdud hərəkətli vətəndaşlara öz ünvanlarında ilkin sənədləşmə işlərinə kömək göstərilir.

Belə bir faydalı işin rayonda tətbiq olunması yuxarı orqanlara, o cümlədən icra hakimiyyətinin özünə göndərilən ərizə və şikayətlərin sayının azalmasına səbəb olub. Məsələn, 2020-ci ildə icra hakimiyyəti aparatına 1462 təklif, ərizə və şikayət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 234 ədəd və ya 13,8 faiz azdır. Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından daxil olan ərizələrin də sayı əvvəlki dövrlə müqayisədə 5,8 faiz azalıb. Nazirlər Kabinetinə göndərilən məktublar da 2019-cu illə müqayisədə 27 faiz azdır. Maraqlı, həm də sevindirici faktdır ki, əvvəllər müəyyən icazələri, sənədləri ala bilməmək haqqında yuxarı orqanlara yazılan şikayətlər, müraciətlər də kəskin azalıb.

Gədəbəydəki Operativ Xidmət Mərkəzinin iş təcrübəsini öyrənməyə dəyər. Yaxşı olar ki, rayon icra hakimiyyətləri təcrübə mübadiləsi aparsınlar və öz aparat işçilərini həmin rayona ezam etsinlər.

## “Şəhid ailəsini öz ailən, əlili öz qardaşın hesab et...”

Rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayevin aparat işçiləri və təsərrüfat rəhbərləri ilə keçirdiyi operativ müşavirədə dediyi sözlərdir. Onda heç İkinci Vətən müharibəsi də başlamamışdı, Gədəbəy 39 şəhid verməmişdi, qazilərin, yaralıların sayı 200 nəfərə çatmamışdı...Amma bu oldu. 30 il həsrətində olduğumuz Qələbə müjdələri ilə birgə ailələrə “qara xəbər”lər də gəldi. Və bu evlərə ilk qədəm qoyanlar, təsəlli verənlər, dayaq duranlar da elə icra strukturlarının işçiləri idi. Əvəzində şəhid atası nə dedi? “Vətən sağ olsun!”. Qara kəlağayısının ucu ilə göz yaşlarını silən anadan nə eşitdilər? “Südüm sənə halal olsun”.

...Bayaqdan rayon icra hakimiyyətinin şəhidlər və qazilərlə bağlı ayrı-ayrılıqda hazırladığı siyahılara baxıram. Bu, elə-belə həmişəki siyahılardan deyil. Bu, şəhid ailələri və qazilərlə aparılan real işin bir mənzərəsidir. Göstərilən diqqət, qayğı və köməklə bağlı şəhid ailəsinin adını çəksək, bəlkə də oxucu bizi başa düşməz. Sadəcə, yanaşma o qədər dəqiq, ardıcıldır ki, bu işin hər bir məsul şəxs üçün nə qədər məsuliyyətli və müqəddəs bir işə çevrildiyi açıq-aşkar hiss olunur. “Şəhid hamımızındır” deyənlərin isə sayı-hesabı yoxdur. Heydər Əliyev Fondu, rayon icra hakimiyyəti, SHXÇDX-nın rayon şöbəsi, Ərazi Məşğulluq Mərkəzi, Dövlət Sığorta Kommersiya Şirkəti, Rusiyada və Azərbaycanda yaşayan iş adamları, kənd və şəhər sakinləri, ayrı-ayrı vətəndaşlar…

Bu günlər şəhid qapıları, demək olar ki, hər gün döyülür, ailəsinə baş çəkilir, problemi öyrənilir. Yuxarıda qeyd etdiyim siyahıda belə bir qrafa da var: “şəhid ailəsinin problemi”. Elə onun yanındaca “nə vaxt, necə həll olunub” qrafası da diqqəti cəlb edir. Bu məsələni ona görə bəzi incəliklərinə görə şərh edirik ki, yerlərdə şəhid ailələsinin problemi ilə bəzən kifayət qədər ciddi məşğul olunmur. Gədəbəydə isə bu sahədə əməlli-başlı bir sistem yaradılıb. Rayon rəhbərinin son aylar tabeliyindəki işçiyə daha çox verdiyi sual “neçə şəhid ailəsinə baş çəkmisən”dir. RİH başçısı özü də bu işdə nümunə göstərir. Şəhidlərin dəfnində, hətta ad günlərində iştirak edir, ailə üzvlərinə baş çəkir, məzarları üstünə gedib bir dəstə gül qoyur, ruhuna dualar oxudur.

Qarıkənd sakini Ələddin Həsənovla söhbət edirəm. Oğlu Etibar şəhid olub. İki azyaşlı körpəsi qalsa da, rayonda ona göstərilən sonsuz diqqətdən danışdıqca qəhər onu boğur:

– Biz bu ağır günlərdə özümüzü tək hiss etmədik. Bir daha gördük ki, Prezidentimiz, Ali Baş Komandan nə əsgərini, nə şəhidini, nə də qazisini unudur, nə də onların ailələrini. Oğlum Etibarı noyabr ayında dəfn etmişik. Sağ olsunlar, o zaman başda rayon rəhbərliyi olmaqla hamısı iştirak etmişdi, bizə təsəlli vermişdi, böyük maddi və mənəvi dəstək göstərmişdilər. İndi aradan 3 ay keçəndən sonra ad günündə də Etibarı yad etmələri bizi hədsiz duyğulandırdı. İcra hakimiyyəti başçısının əlində bir dəstə gül balamın ad günündə qapımızı yenidən döyməsi məni qürurlandırdı. Bir gün əvvəl də müavini və hərbi komissar da gəlmişdi.

Eyni razılıqla Gədəbəy şəhər sakini Cumalı Həsənov danışır:

– Oğlum Novruz Vətən uğrunda canından keçib. Mən onunla fəxr edirəm. Bir də ona görə qürurluyam ki, dövlətimiz bu ağır günlərdə bizi tək buraxmadı. Daim qayğı, diqqət hiss elədim. O gün bir-bir yadıma salmışam. Ayrı-ayrı qurumların rəhbərləri, nümayəndələri müxtəlif vaxtlarda evimizə gəliblər, “nə lazımdır?” deyə soruşublar. Şəhid oğlumun adına bir bulaq kompleksi yaratmaq istəyirdik. Lakin həmin yerdə qaz xətti mane olurdu. Xahiş etdik ki, imkan varsa, xəttin yerini dəyişdirsinlər. Elə ertəsi gün gəlib dəyişdirdilər...

Düşmənlə sərhəddə yerləşən Gədəbəy müharibə, şəhid, şəhid ailəsi nə olduğunu yaxşı bilir. Birinci Qarabağ savaşında qəhrəmancasına həlak olanların xatirəsi daim əziz tutulur. Onların adına küçələr, məktəblər var, bulaqlar çəkilib, barelyefləri düzəldilib və sair. İndi bu adların sırasına təzələri yazılıb. Bu dəfə onlar tarix yazıblar, torpaqlarımızı mənfur düşməndən azad ediblər. Məgər bu oğulların xatirəsinə, ailəsinə biganəmi qalmaq olar?! Yaxşı ki, bu ehtiram Gədəbəydə addımbaşı hiss olunur. Novosaratovkadan Seymur Ələsgərov, Hüseyn Rzayev, Əli Rzayev, Röyal Həsənov, Azər Hüseynov, Çobankənddən Amin Rzayev, Şamxal Əlizadə, Çanaqçı kəndindən Yasin Məmmədov və hamısının adını çəkə bilmədiyimiz, ruhları qarşısında baş əydiyimiz şəhidlər ehtiramla yad edilir.



Torpaqlarımızın azadlığı uğrunda döyüşən qazilərimiz də Gədəbəydə hər cür diqqət və qayğı ilə əhatə olunub, onların hər birinin problemi öyrənilib, yaralılara baş çəkilib, lazımi köməklik göstərilib və bu iş indi də davam edir.

## Tezliklə öz tələbatını tamamilə ödəyəcək...

Ağır il olsa da, pandemiya tüğyan etsə də Gədəbəy 2020-ci ili uğurla yola salıb. Ötən il rayonda mühüm infrastruktur layihələri icra olunmuş, əhalinin sosial vəziyyətinin yüksəldilməsi istiqamətində zəruri təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, iqtisadi və sosial həyatda baş verən pozitiv dəyişikliklər bütün sahələrdə yüksəlişlə müşayiət olunmuşdur. Belə ki, 2020-ci ildə rayonda ümumi daxili məhsul istehsalının həcmi 513,3 milyon manat olmuşdur ki, bu da ötən illə müqayisədə 33,3 milyon manat və ya 6,9 faiz çoxdur. Rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının həcmi əvvəlki illə müqayisədə 13,6 milyon manat və ya 9 faiz artaraq 164 milyon manat olmuşdur.

Hesabat dövründə rayonun tikinti kompleksində iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələri hesabına 97 milyon manat məbləğində investisiya cəlb edilmişdir ki, bu da keçən ilin müvafiq dövrünə nisbətən 2,2 dəfə çox olmuşdur. İnvestisiyaların 92,9 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuş və bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3,1 dəfə çoxdur.

Son 17 ildə Gədəbəy rayonunda 17 min 803 yeni iş yeri yaradılmışdır ki, onlardan da 686-sı daimidir. Bunun 1066-sı ötən ilin payına düşür. Bunlardan 20-si yeni yaradılmış müəssisə və təşkilatlar, 83-ü mövcud müəssisə və təşkilatlar, 583-ü fiziki şəxslər tərəfindən, 380-i isə digər hallarda yaradılmışdır. 2020-ci ildə Gədəbəy rayonunun büdcəsinin yerli gəlirlər üzrə mədaxili, ümumilikdə, 6,9 milyon manat proqnoz plana qarşı 7 milyon manat və ya 101,9 faiz olmaqla 129,3 min manat, ötən ilin müvafiq dövrü ilə müqayisədə 177,1 min manat çox yerinə yetirilmişdir.

Qeyd edək ki, 2020-ci ildə rayonun dotasiyadan asılılığının aradan qaldırılması istiqamətində aparılmış məqsədyönlü tədbirlər nəticəsində qarşıya qoyulan hədəflərə, demək olar ki, nail olunmuşdur. Bu prosesin 2021-ci ildə də davam etdirilməsi nəzərdə tutulur.

2020-ci ildə rayonun Zəhmətkənd kəndində gündəlik istehsal gücü 1100 kubmetr olan beton istehsalı müəssisəsində, “Meh” və “Turşsu” istirahət mərkəzlərində genişləndirmə işləri aparılmış, Poladlı kəndində illik istehsal gücü 100 ton qurudulmuş meyvə, 1 ton müalicəvi bitki emalı və qablaşdırılması müəssisəsinin tikintisi davam etdirilir.

Rayonda iş adamlarına və sahibkarlara bütün zəruri şərait yaradılmış, onları narahat edən məsələlər daim diqqətdə saxlanılmış, səmərəli fəaliyyətləri üçün əməli köməklik göstərilmişdir. Bu müsbət tendensiyanın 2021-ci il ərzində də davam etdirilməsi və yeni layihələr hesabına rayona daha çox investisiya cəlb edilməsi nəzərdə tutulur.

Ötən il rayonun turizm potensialının üzə çıxarılması, tarixi abidələrin, turistik məkanların təbliği məqsədilə Gədəbəy Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə qədim tarixə malik “Qız qalası” və “Mahrasa” abidələrinə yolun çəkilişinə başlanılmış və təxminən 15-16 kilometr uzunluğunda yolun yatağında işlər başa çatdırılmışdır. Eyni zamanda, “Koroğlu” qalasına gedən piyada yolunun və qalanın ətrafının Günəş batareyaları ilə işıqlandırılması təşkil olunmuşdur. “Qız qalası”na çəkilməkdə olan avtomobil yolunda tikinti işlərinin başa çatdırılmasına, “Koroğlu” qalasına gedən avtomobil yolunun yenidən qurulmasına və Cənubi Qafqazda ilk dəmir yolu xəttinin 1,1 kilometr hissəsinin turizm məqsədilə bərpasına kömək göstərilməsi üçün aidiyyəti dövlət orqanlarına müraciət olunmuşdur. Şübhəsiz, abidələrlə bağlı görülən bu işlər rayonda turizmin inkişafı və rayon iqtisadiyyatına sərmayələrin cəlb edilməsində rolu əhəmiyyətli olacaq.

Xatırladaq ki, 2019-cu ilin yayında Gədəbəydə keçirilən Milli Yaylaq Festivalı bir çox ölkələrə səs salmışdır. Uğurlu bu layihənin yola saldığımız ildə də davam etdirilməsi, bu dəfə 17 deyil, 45 xarici ölkədən qonaq dəvət olunması nəzərdə tutulmuşdu. Lakin koronavirusun geniş yayılması bu tədbirin təxirə salınması ilə nəticələndi.

…Gədəbəy işıqlı bir yol üstündədir. Rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev söhbət əsnasında dedi ki, bu işığı Gədəbəyə cənab Prezidentimiz İlham Əliyev verib. Onu daim şöləndirmək, rayonu dünya əhəmiyyətli turizm diyarına çevirmək üçün əlimizdən gələni əsirgəməyəcəyik.

***Hamlet QASIMOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***